Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Nəciblik və paklıq timsalı - Zərifə xanım Əliyeva

Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı - 2023**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Nəciblik və paklıq timsalı -** Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed Nərgiz.M; ixt.red. və burax. məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 43s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

**“Həkim insanlara günəş qədər lazımdır”.**

Bu il Azərbaycan oftolmologiya sahəsində ilk qadın akademik, tibb elmləri doktoru, professor, gözəl qəlbli insan, fədakar ana Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 illik yubileyidir. Azərbaycan oftalmologiya elminə böyük töhfələr vermiş akademik göstərdiyi pedoqoji fəaliyyəti ilə bu sahədə kadrların hazırlanmasında da əvəzsiz xidmətlər göstərmişdir.

Təqdim edilən vəsaitdə Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti, görkəmli şəxsiyyətlərin akademik haqqında söylədikləri fikirlər, akademikin yüz illik yubileyi ilə əlaqədar kitabxanalarda, mədəniyyət müəssisələrində, təhsil ocaqlarında keçirilməsi nəzərdə tutulan tədbirlər haqqında məlumatlar yer almışdır.

## Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**03 noyabr 2022, 13:03**

2023-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 ili tamam olur.

Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tibb elminin inkişafında xüsusi xidmətlər göstərmiş görkəmli oftalmoloq alim Zərifə

Əliyevanın anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Zərifə Əliyevanın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 3 noyabr 2022-ci**

## Azərbaycan oftolmologiya sahəsində ilk qadın akademik

Azərbaycan tibb elmini dünya miqyasında tanıdan, elm xəzinəmizə sanballı töhfələr verən, beynəlxalq miqyasda böyük nüfüz qazanan, yorulmaz fəaliyyəti ilə tibb elminə qayğısını əsirgəməyən SSR-i Tibb Elmləri Akademiyasının akademiki M.İ. Averbax adına mükafatın laureatı, AEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, tibb elmləri doktoru Zərifə Əliyevanın bu il 100 illik yubileyidir. Zərifə xanım cəmi 62 il ömür yaşasa da, bu qısa zamanda çox böyük işlər görmüşdür. 1942-ci ildə orta məktəbi bitirən Zərifə xanım, 1947- ci ildə Azərbaycan Dövət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir. Onun bu sənəti seçməsində atasının böyük təsiri olmuşdur. Elmi fəaliyyətində Zərifə xanım müxtəlif peşə zərərlərinin: yod, talk, şin konifol digər toksik maddələrin görmə orqanlarına ziyanlı təsirinin biokimyəvi mexanizmini tədqiq edərək yeni elmi biliklər ortaya çıxartmışdır. Bu tədqiqatları o, müxtəlif irimiqyaslı müəsisələrdə həyata keçirmişdir. Akademik Zərifə xanım Əliyevanın apardığı tədqiqatlardan sonra istehsalatda görmə orqanlarına təsir edən zərərli maddələrin təsirini azaltmaq üçün ayrıca tədbirlər görülmüşdür. Akademikin gərgin elmi fəaliyyəti ilə yanaşı pedaqoji fəaliyyəti də, yüksək səviyyədə olmuşdur. O, istedadlı müəllim, gözəl pedaqoji təşkilatçı hesab edilirdi.

Son dərəcə ləyaqətli, insanpərvər, xeyirxah olan Zərifə Əliyeva həm də ailə səadətinin qoruyucusu, fədakar ana idi. O, Heydər Əliyev kimi siyasətçinin xanımı olmaqla bərabər böyük bir məsuliyyət daşımışdır. O, bilirdi ki, onun ailəsi diqqət mərkəzində olduğundan həmişə hamıya nümunə olmalıdır.

Təqdim edillən vəsaitdə Zərifə Əliyevanın həyat və fəaliyyəti, kitabxanalarda görkəmli oftolmoloqun zəngin elmi-irsinin təbliği münasibətilə keçiriləcək tədbirlərin ssenariləri yer alır.

**Kitab sərgisi:**

Görkəmli alim, oftolmoloq, akademik Zərifə Əliyevanın həyat və yaradıcılığının təbliğində sərgilərin təşkili vacibdir. Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın 100-cü il dönümü münasibətilə "Akademik Zərifə Əliyeva - 100", "Nəciblik və paklıq timsalı", "İşıq bəxş edən insan", "Ürəklərdə yaşayan insan" başlıqlı sərgi təşkil olunur. Sərgidə Zərifə xanımın həyat və fəaliyyətini əks etdirən kitablar, haqqında məqalələr dərc edilən mətbuat materialları, görkəmli şəxslərin Zərifə xanım haqqında səsləndirdikləri fikirlər, kitabxana əməkdaşları tərəfindən hazırlanan biblioqrafik siyahı yer alır. Həmçinin akademikin həyat və elmi fəaliyyətini əks etdirən sərgi virtual rejimdə istifadəçilərə təqdim oluna bilər. Kitabxananın fondu əsasında hazırlanan sərgilərdə aşağıdakı məlumatlardan istifadə etmək olar.

1. Başlıq
2. Kitabların nümayişi
3. Dövri mətbuatda çap edilmiş məqalələr
4. Haqqında deyilmiş fikirlər
5. Akademik Zərifə Əliyevanın söylədiyi fikirlər.
6. Fotolar


ЗАРИФА АЛИЕВА


HALAL
ŞÖHRƏT


Zərifə xanım
ƏLİYEVA


NURLU ÖMRÜN SALNAMƏSİ
ZƏRİFƏ ƏLİYEVA - 95
Metodik vəsait


ZƏRİFƏ ƏLİYEVA
Biblioqrafiya







**Xatirələrdə yaşayan Zərifə Əliyeva: Haqqında deyilmiş fikirlər:**

Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm bu gündə bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəfəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşımın olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam.

Ulu öndər Heydər Əiyev

**Konfrans:**

“Zərifə xanımın fəxri adları, elmi titulları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir.”
Kitabxanada akademik Zərifə Əliyevanın 100 illiyinə həsr olunmuş” Nəsillərə nümunə olan ömür yolu” mövzusunda konfrans keçirilməsi məqsədəuyğundur. Bunun üçün kitabxanaçı əvvəlcədən konfransın proqramını təşkil edir. Keçirilməsi üçün dəqiq vaxt və yer seçilir. Dəvət ediləcək iştirakçılar təyin edilir. Akademik Zərifə Əliyevanın həyat və fəaliyyətindən bəhs edən video rolik nümayiş edilir.
Konfransda Azərbaycan oftalmologiya elmini dünyada tanıdan Zərifə Əliyevanın ömür yolu və elmi-ictimai fəaliyyətindən bəhs edən sənədli film də nümayiş olunur.

## Əbədiləşən ad:

1990-cı ildə Akademik Zərifə Əliyeva adına Naxçıvan şəhər poliklinikası açılmışdır. Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olmuş, Zərifə xanım Əliyeva guşəsinin və büstünün açılış mərasimində iştirak etmişdir. Foyedə akademik Zərifə xanım Əliyevanın büstü qoyulmuş, həyat və fəaliyyətini əks etdirən maraqlı fotolar, həmçinin tanınmış insanların görkəmli oftalmoloq alim haqqında söylədikləri fikirlər yer almışdır. Zərifə xanım Əliyeva haqqında kitablar da iştirakçılarda böyük maraq doğurmuşdur.

**Oxucularla söhbət :Vətən sevgisi:**

Kitabxanalarda vətənə məhəbbət, vətəni sevmək, onu qorunmaq hisslərinin oxuculara aşılanmasında böyük işlər görülür. Belə tədbirlərdə oxuculara əsl vətənpərvər qadın, alim, akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini örnək gətirmək olar. Zərifə xanım Əliyevanın yaradıcılığı və həyat və fəaliyyəti ilə

bağlı *“Xalqımızın vətənpərvər alimi”* adlı söhbət keçirə bilərik**.** Söhbətdə 2018-ci ildə Azərbaycan Milli Kitabxanası tərəfindən çap edilmiş **“Zərifə Əliyeva - Biblioqrafiya”** kitabını təqdim edə bilərik. Kitab **“Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasındandır.**

**Zərifə Əliyeva: Biblioqrafiya / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası . - Bakı : Zərdabi - Nəşr, 2018. - 256 s. - (Azərbaycanın Görkəmli Şəxsiyyətləri).**




Akademik Zərifə xanım Əliyeva həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini idi. Bu sahədə fədakarcasına çalışırdı. Bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirir, dəyərli çıxışlar, məruzələr edir, dünya xalqlarını hər çıxışında sülhə, əmin-amanlığa səsləyirdi. O, respublika “Bilik” cəmiyyəti idarə heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti idarə heyətinin, Moskvada çıxan “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü kimi maarifçilərimizdən gələn ənənələri də uğurla davam etdirirdi. Zərifə xanım Əliyevanın tibb elminin inkişafı və pedaqoji kadrların hazırlanması sahəsindəki xidmətləri daim yüksək qiymətləndirilmişdir. 1980-ci ildə bu xidmətləri nəzərə alınaraq ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. 1981-ci ildə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işləri, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyası oftalmologiya sahəsində ən yüksək

mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Onu da qeyd edək ki, Zərifə xanım keçmiş SSRİ-də belə yüksək mükafata layiq görülən ilk qadın alim idi. 1983-cü ildə isə görkəmli alim tibb elmindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir. Həyatın, taleyin ona bəxş etdiyi ən böyük mükafat isə Zərifə Əliyevanın malik olduğu və elmi-ictimai işlərinin gərginliyinə rəğmən hər zaman qoruduğu qadın incəliyi və zərifliyi idi. Zərifə xanım Əliyeva qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı missiyasını da uğurla yerinə yetirirdi. O, Ümummilli Lider Heydər Əliyevin ən sadiq silahdaşı olmuşdur. Ulu Öndər Heydər Əliyev bu böyük insanın xatirəsini hər zaman hörmətlə anaraq deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam". Zərifə xanım Əliyeva Vətənimiz üçün iki layiqli övlad tərbiyələndirmişdi. Zərifə xanımın ictimai fəaliyyətini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva daha geniş miqyasda davam etdirir. İrəli sürdüyü təşəbbüslərlə, həyata keçirdiyi layihələrlə dünyada sülhün təmin olunmasına, tolerantlıq, mədəniyyətlərarası dialoq, multikulturalizm dəyərlərinin yayılmasına töhfə verir. Akademik Zərifə xanım Əliyeva ilə bağlı düşüncələrdən bir həqiqəti dərk edirsən ki, ömrünü böyük mənəvi ideallara həsr etmiş şəxsiyyətlər heç

zaman unudulmur. O ideallar yaşadıqca, var olduqca Zərifə xanım kimi şəxsiyyətlər də yaşayır.

**Akademik Zərifə Əliyeva haqqında deyilmiş fikirlər:**

Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.

**Heydər Əliyev,**

*Ümummillilider*

“Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur.”

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

“Zərifə Əliyevanı öz sahəsinin məşhur alimi hesab edirəm”.

**A.Nesterov**

Zərifə xanım mənim xatirimdə hər zaman Azərbaycan qadınlarının, azərbaycanlı anaların təcəssümü, idealı kimi yaşayır.

**Fəxriyyə Xələfova**

“Zərifə Əliyeva qayğıkeş ana, vəfalı həyat yoldaşı və səmimi iş yoldaşı idi.”

**Turqay Məmmədova**

Zərifə xanım Əliyeva müdrik, yüksək mədəniyyət və elm sahibi olmaqla yanaşı incə hissiyata malik insan idi. Onun bədii duyumu, bədii istedadı bənzərsiz idi.

**Valentin Aleksandrovna**

Zərifə Əziz qızı Əliyeva ən qiymətli insani keyfiyyətlərə malik idi. Onlardan ən əsası insanlara xeyirxahlıqla bağlıdır.

**N.A. Puçkovskaya**

**Biblioqrafik icmal:**

Kitabxanada keçirilən şəxsi icmallar bir qayda olaraq hər hansı bir şəxsə - şair, yazıçı, ictimai xadim, müəyyən bir sahənin mütəxəssisi və b. həsr olunur. Böyük alim, akademik Zərifə Əliyeva haqqında kitabxanada icmalın keçirilməsində məqsəd alimin, həyat və yaradıcılığına aid əsərləri təbliğ edə bilməkdir. İcmalın daha əhatəli olması üçün onu sərgi ətrafında keçirmək daha maraqlı olar. Tədbirin sonunda Zərifə xanım Əliyevanın həyat və fəaliyyətindən bəhs edən slayd nümayiş edilir. Sərgi ətrafında icmalın keçirilməsinin müsbət cəhəti odur ki, bu zaman oxucu kitabları görməklə yanaşı, onun qısa məzmunu ilə də tanış olur. Belə kitablardan - “Zərifə Əliyeva” kitabının “Əvəzolunmaz insan” fəslində müəllif qəhrəmanın doğulub boya–başa çatdığı ailə, nəsil–nəcabət, xüsusilə də onun atası —

görkəmli həkim, alim və dövlət xadimi Əziz Əliyev haqqında çox zəngin, tutarlı faktlara, epizodlara, xatirələrə üz tutur… Bu kitab haqqında məlumat iştirakçılara daha maraqlı olar.

**Xatirə gecəsi**

**Aparıcı:**1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuş Əliyeva Zərifə Əziz qızı 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə, 1947-ci ildə isə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1947-1949-cu illərdə Moskvada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda diplomdan sonrakı hazırlıq fəaliyyəti nəticəsində oftalmologiya ixtisası üzrə mütəxəssis kimi təkmilləşmişdir.

**Aparıcı**: Z.Əliyeva 1959-cu ildə fəlsəfə doktoru, 1976-cı ildə M.Helmholts adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmlər doktoru dissertasiyalarını müdafiə etmiş, 1977-ci ildə isə professor elmi adını almışdır. 1983- cü ildən isə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Müxtəlif illərdə Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi, böyük elmi işçi sonralar Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri vəzifələrində çalışmışdır

**Aparıcı:**Onun təşəbbüsü ilə 1979-cu ildə Fiziologiya İnstitutunun Bakı Məişət kondisionerləri zavodu nəzdində işçilərin görmə orqanının fiziologiyası və professional patologiyasının problemi ilə məşğul olan ilk ixtisaslaşmış laboratoriyası təşkil edilmişdir. Eksperimental tədqiqatlar nəticəsində istehsalatda aşağı intensivli zərərli maddələrin görmə orqanına təsirinin mühüm qanunauyğunluqları alim tərəfindən aşkar olunmuşdur. Z.Əliyevanın oftalmologiya sahəsində çoxşaxəli elmi fəaliyyətinin əsas istiqamətini traxoma xəstəliyinin klinikası, görmə orqanının fiziologiyası və peşə

xəstəliklərinin təsiri nəticəsində baş verən göz patologiyalarının profilaktikası, diaqnostikası və müalicəsi, kimya sənayesi müəssisələrinin işçilərində görmə orqanının vəziyyəti, herpetik göz xəstəlikləri, ağır virus konyunktivitləri, gözün hidrodinamik sisteminin fizioloji-anatomik xarakteristikası, göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi, şəkərli diabet zamanı göz xəstəlikləri, terapevtik oftalmologiya, iridodiaqnostikanın əsasları, qlaukoma problemləri və s. təşkil etmişdir**.**

**Aparıcı: "Terapevtik oftolmologiya"** kitabının müəllifi olan Zərifə xanımın bu kitabı indidə oftalmoloqların stolüstü kitabıdır. O, xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını tədqiq edən alimlərdən biri kimi gözün əlvan təbəqələrdə dəyişikliyini tədqiq edən alimlərdən olmuşdur.

**Aparıcı:**Z.Əliyeva 150-yə yaxın elmi əsərin, 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, 1 ixtira, 12 səmərələşdirici təklifin müəllifi olmuşdur. Z.Əliyeva onlarca elmlər doktoru və fəlsəfə doktorunun elmi rəhbəri və məsləhətçisi olmuşdur. Çox sayda beynəlxalq qurultay, konqres, simpoziumlarda iştirak etmiş akademik Z.Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə Bakıda ilk dəfə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin Plenumu yüksək səviyyədə keçirilmişdir (1977). Z.Əliyeva SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini, SSRİ Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, "Oftalmologiya xəbərləri" jurnalının (Moskva) redaksiya heyətinin, respublika "Bilik" Cəmiyyəti İdarə heyətinin üzvü olmuşdur.

**Aparıcı:** Z.Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının "Akademik M.Averbax" mükafatı ilə təltif olunan (1981) ilk qadın alim olmuş, Əməkdar elm xadimi fəxri adına (1982) layiq görülmüş, "Qırmızı Əmək Bayrağı" ordeni (1982) ilə təltif olunmuşdur.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Milli Oftalmologiya Mərkəzi akademik Z.Əliyevanın adını daşıyır, Bakı şəhərində mərkəzi küçələrdən birinə alimin adı verilmişdir. Akafemik Zərifə Əliyeva 1985-ci il aprelin 15-də Moskva şəhərində vəfat etmiş, 1994-cü ildə cənazəsi Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Aparıcı:** Bu gün elmin bütün sahələrində Azərbaycan qadınının izi vardır deyə bilərik. Tibb sahəsində Azərbaycanın çoxlu alim qadınları yetişmişdir: Bunlardan Sara Nəzərli, Gülzar İmaməliyeva , Nəsibə Hüseynova, Məryəm Mahmudbəyova, Fəridə Əfəndiyeva, Solmaz İsrafilbəyli, Zəhra Salayeva və b. adlarını çəkə bilərik.

**Aparıcı:** Zərifə xanım ilk növbədə həkim idi, bu peşəni çox uca tuturdu. Həkimi günəşə bənzədərək deyirdi: "Həkim insanlara günəş qədər lazımdır".

**Aparıcı:** Həmin dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayıldığından traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. İnsanları bu bəladan xilas etmək, eləcə də digər aktual problem olan gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib hazırlamaq lazım idi. Zərifə xanım Əliyeva məhz belə bir vaxtda Moskvadan vətənə qayıdıb Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu və elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsi təşkil edirdi. Zərifə xanım traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı.

**Aparıcı:** 1959-cu ildə "*Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi*" mövzusunda namizədlik

dissertasiyasını uğurla müdafiə etmişdir. Oftolmologiya sahəsində onun təklif etdiyi müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapmışdır və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv olunmuşdur.

**Aparıcı:** Zərifə xanım Əliyevada özünə şərəfli bir ad qoyub getmiş şəxsiyyətlərdən biridir. Böyük yaradan ona elə böyük ürək bəxş etmişdir ki, qəlbinə elə bir nur bəxş etmişdir ki, onunla rastlaşan hər kəsin ürəyində ilk növbədə bir ümid çırağı yanırdı.
**Aparıcı:** Azərbaycan xanımının mənəvi dəyərlərini özündə əks etdirən Zərifə xanım bir qadın bir ana, bir həyat yoldaşı, bir həkim, bir alim, bir ziyalı olaraq sağlığında əfsanələşməyi bacarmışdır. Elə buna görədir ki Zərifə xanımın xatirəsi doğma xalqının qəlbində əbədi yaşayacaqdır. Bu xatirələri gəlin oxucuların dilindən dinləyək:
*(Oxucular səhnəyə gəlir: Sevil Əliyevanın bəstələdiyi ana mahnısı eşidilir)*
**I Oxucu:**Sevil Əliyeva: Anam, uşaqlara, ailəyə çox bağlı idi. Bu onun üçün həmişə birinci yerdə dururdu. Atam bilirdi ki, anamın böyük elmi potensialı, qabiliyyəti var. Buna görədə onun irəli getməsinə çalışırdı. Yadımdadır gecə biz hamımız yatandan sonra anam öz elmi məqalələrini, monoqrafiyalarını işləyirdi. Onun, məşhurlaşmaq, başqalarından seçilmək arzusu yox idi. Nail olduğu hər şey gərgin elmi axtarışların nəticəsi idi. Onun imkanlarını bilən atam icazə verə bilməzdi ki, bu potensial gerçəkləşməmiş, istifadəsiz qalsın.

(*Respublikamızın prezidenti cənab İlham Əliyev isə anası Zərifə xanımı belə xatırlayır:)*

**II Oxucu:** Mənim anamın həyat fəlsəfəsinin köklərini hər şeydən əvvəl onun uşaqlığında axtarmaq lazımdır. O bizə tez-tez deyərdi ki, uşaqlıq - insan həyatının çox mühüm dövrüdür və

heç nə bu dövrü əvəz edə bilməz. Uşaqlıq insanın ömrü boyu təkrar-təkrar müraciət etdiyi dünyadır. İnsan xeyirxahlığın, şəfqətin nə olduğunu uşaqlıqda dərk edir. O da çox xoşbəxt uşaq olub. Uşaqlıq onun yaddaşında məhəbbət və əziz xatirələr mənbəyi kimi qalıb.

**Aparıcı:**Həyatda bəzən qazanılan uğurlar təkəbbür, özündən razılıq və başqalarına laqeyidlik hissləri yaradır. Lakin bu, yalnız güclü mənəviyyata malik insanları dəyişə bilmir. Zərifə xanımın ailəsi şöhrətin zirvəsinə çatdıqca o, daha da sadələşirdi. Onun üçün ad -sandan, şan - şöhrətdən əvvəl mənəvi zənginlik əsas idi.

https://www.youtube.com/watch?v=5IcfGv0P0wk

https://www.youtube.com/watch?v=RbAWDaQyJNs

https://www.youtube.com/watch?v=D9F5Mhdp-40

**Aparıcı:** Azərbaycanın gənc, tanınmış modelyeri Fəxriyyə Xələfova Zərifə xanım haqqında bu fikirləri demişdir: “Zərifə xanım mənim xatirimdə hər zaman Azərbaycan qadınlarının, azərbaycanlı anaların təcəssümü, idealı kimi yaşayır. Onun ən yüksək insani keyfiyyətləri bu gün bütün qadınlara örnək olmalıdır. Bu keyfiyyətlər arasında onun alicənablığı, yüksək mədəniyyəti, intelektual səviyyəsi, xeyirxahlığı, qayğıkeşliyi və mehribanlığı əsas yerləri tuturdu. Mən onun zəhmətsevərliyinə, məsuliyyətinə, işgüzarlığına, yorulmaq nə olduğunu bilmədən fəaliyyət göstərməsinə, bacarığına heyran qalmışdım. Bütün bunlarla bərabər Zərifə xanım böyük bir insanın həyat yoldaşı idi. Və onun qayğılarını da Zərifə xanım elə əsas vəzifə borcu sayırdı. Zərifə xanımda bütün insanlığa sevgi dolu bir ürək vardı.

**Aparıcı:** Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıtmış Akademik Zərifə xanım Əliyeva uzaq ellərdə də xatırlanır.Türkiyənin Ankara şəhərindəki yeni parka akademik Zərifə Əliyevanin adı verilmişdir Türkiyə paytaxtı Keçiörən rayonu qadınlarının təşəbbüsü ilə Bələdiyyə Məclisi Ankaranın bu rayonunda salınan yeni parka həyat və fəaliyyəti ilə türk dünyası qadınına örnək olan, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın adının verilməsi haqqında qərar qəbul etmişdir. Bələdiyyə Məclisinin qərarında bildirilir ki, parka Zərifə xanım Əliyevanın adının verilməsi "Bir millət, iki dövlət" olan Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlığının daha bir parlaq nümunəsidir. Keçiörən bələdiyyəsinin sədri Turqut Altınok bildirmişdir ki, park 22 min kvadratmetr ərazidə yerləşir.




**Aparıcı:** Paytaxt Kiyevdən cəmi 30 kilometrlik məsafədə akademik Zərifə xanım Əliyevanın adını daşıyan məktəb də vardır. Məktəbdə əksər Avropa xalqlarının dillərində, fars, ərəb, yapon və o cümlədən Azərbaycan dilində tədris aparılır. 2015-ci ildən azərbaycanlı akademikin adını daşıyan təhsil ocağı bu baxımdan birinci dərəcəli linqvistik məktəb sayılır. 2400 şagirdin təhsil aldığı məktəbdə yerli ukraynalılarla yanaşı, burada daimi və müvəqqəti yaşayan müxtəlif millətlərdən olan uşaqlar da təhsil alır.

**Aparıcı:**İrpen şəhərinin mərkəzi parklarından biri də 2003-cü ildən Zərifə Əliyevanın adını daşıyır. 2004-cü ildə isə burada

görkəmli akademikin büstü ucaldılıb. Bundan başqa, parkın yaxınlığındakı şəhərin mərkəzi küçələrindən biri də akademikin adını daşıyır. Azərbaycanlı akademikin adını daşıyan park elə birbaşa eyniadlı küçəyə açılır. Parkda ilin müxtəlif mövsümündə yerli sakinlər və şəhərin qonaqları ziyarətçi olur, istirahət edirlər. Qeyd edək ki, sözügedən küçə həmçinin akademik Zərifə Əliyevanın adını daşıyan parkla məktəbi də birləşdirir.

Kitabxanada yubilyar alim haqqında təşkil edilən tədbirlər zamanı, Nəbi Xəzrinin Zərif ürəkli məğrur qadına", "Mirvarid Dilbazinin - Unudulmaz Zərifə xanımın əziz xatirəsinə, "Nəriman Həsənzadənin - Zərifə xanımın xatirəsinə", Süleyman Rüstəmin - Duyuram ağırdır, dərindir yaran..." və b şeirlərdən istifadə edə bilərik.

**Zərifə xanımın xatirəsinə**

O ağıl, o kamal, sədaqət rəmzi
Bənövşə fəslində tərk etdi bizi.
Üstünə tökülən güllər ağladı,
Ona ana deyən dillər ağladı.
Analıq etdiyi neçə oğul, qız,
Parlaq istedadlar qaldı anasız.
O qüdrət timsalı, böyük sərkərdə
Ağladı, dözməyib bu acı dərdə.
Tabutun üstünə əyilib başı,
Güllərə qarışdı onun göz yaşı.
Kişilər ağlasa ağlayar vətən,
Zəriflər zərifı, Zərifəmiz sən –
Nə ülvi qadındın, nə zəngin xilqət,
Sənsiz gözü yaşlı qalan məhəbbət
Sənin şöhrət oldu təmiz adına
Eşq olsun qüdrətli o sərkərdənin

Qəlbini fəth edən müdrik qadına!

Mirvarid Dilbazi

1985

**Duyuram ağırdır, dərindir yaran...**

Bu qara xəbərdən qaraldı qanım,
Əziz dost hamıya doğmadır bu qəm.
Ağrıdı ürəyim, ağrıdı canım,
İnsan taleyini düşündüm bu dəm.

Sənə gör nə deyir bu gün hər ürək.
Əziz Heydərimiz, başın sağ olsun.
Həyat yollarında həmişəki tək
Alnın açıq olsun, üzün ağ olsun.

Uzaqdan-uzağa görürəm ki, mən
Sualsız, üzündən oxunur dərdin.
Əziz Zərifəndən ayrılırsan sən,
Hər ürək sözündən oxunur dərdin.

Dünyadan növbəylə köçəcəyik biz,
Desək ataların sözüylə, dostum.
Bəli ağlayırsan səssiz-səmirsiz
Böyük ürəyinin gözüylə , dostum.

Ömrümüz boyunca əziz itkilər
Bizdən uzaq deyil, bağrımızdadır.
Bunu yaxşı bilir hər ər oğlu ər –
Həsrəti bu ürək ağrımızdadır.

Duyuram ağrıdır, dərindir yaran,
Deyirəm ki: bu qəm, son qəmin olsun.
Ey sadə, ey nəcib, ey böyük insan,
Təsəlli ömürlük həmdəmim olsun.

*Süleyman Rüstəm*

**Zərif ürəkli məğrur qadına**

Ölüm hücuma keçdi,
Necə qəflət hücumdu?!
Gözlərə işıq verən
Niyə gözünü yumdu?

Zərif ürəkliydi
O məğrur qadın
O, əziz qızını el əzizlədi.
O, igid Nüşabə,
O, Burla xatın
Xalqını işığa, nura səslədi.

Şəfəqli baxışlar bəzədi ömrü,
Sanki bir dünyalıq
Oldu təbəssüm.
Torpaqdan çiçək tək
Bitməkdən ötrü
Elə bil gözlərdə soldu təbəssüm.

Baxdı Azərbaycan,
Üzündə kədər,
Elə sızladı ki, qəlbinin başı...

Bulud göndərdi ki,
Doğma üfüqlər
Yağışa çevrilsin gözünün yaşı.

Çökdü çiyinlərə
Ağır-ağır dərd,
Vida ümmanının sahillərində
Neçə min insana
Ata olan ər
Sanki yetim qaldı yer üzərində.

Məhəbbət üstündə
Ucalır cahan,
Səadət yolları
İlk kəhkəşandır.
Qəhrəman oğulla qoşa adlayan
Özü də ən böyük bir qəhrəmandır!
Doğma el,
Doğma yurd
Onu gözlədi,
Osa ürəklərdə susmaz səs oldu.
Vəfasız yer onu
Udmaq istədi,
Vəfa günəşi tək
O, sönməz oldu!

Çıxsın duyğularım tanış yollara,
Dillənsin intizar ürəklər kimi.
Qoy bu misralarım
Təzə məzara
Səpilsin gecikmiş çiçəklər kimi.

Nəbi Xəzri

**Dəyirmi masa** – Görkəmli akademikin 100 illik yubileyi münasibətilə kitabxanalarda səhiyyə və digər təşkilatlarla birgə *"Qaranlığa nur saçan işıq", "Kamil və müdrik ömür yolu", "Xeyirxahlıq rəmzi"* başlıqlı dəyirmi masalar təşkil edə bilərik. Kitabxanada virtual dəyirmi masalar, konfransların təşkili çox əhəmiyyətli olduğundan dəyirmi masanı virtual şəkildə də təşkil etmək olar. *Zərifə Əliyevanın ömür yolundan danışılacaq dəyirmi masanı* təşkil edən zaman iştirakçılar əvvəlcədən təyin edilir, mütəxəssislərin konkret çıxışları və mövzu ilə bağlı suallar hazırlanır. Konfrans haqqında kitabxanaçı sosial şəbəkələrdə, kitabxananın saytında, youtube səhifəsində elan yerləşdirməlidir. Bu cür tədbirlər maarifləndirmə xarakteri daşıdığından tədbirin video çəkilişini kitabxananın saytında, sosial şəbəkələrdə yerləşdirməklə daha çox istifadəçinin göz xəstəlikləri haqqında məlumatlandırılmasına imkan yaratmaq olar. Tədbirə Azərbaycan Tibb Universitetinin göz xəstəlikləri kafedrasından, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinindən mütəxəsislər dəvət edə bilərik.
Konfransda yuxarı sinif şagirdlərə arasında aşağdakı suallardan ibarət sorğu keçirə bilərik.

1. Zərifə Əliyeva kimdir?
2. Tibb Elminin hansı sahəsində Zərifə Əliyeva böyük işlər görmüşdür?
3. Zərifə xanım hansı göz xəstəliklərinin kökünün kəsilməsində tədqiqatlar aparmışdır?
4. Siz öz gözlərinizin işığını necə qoruyursunuz?
5. Hamımızın bildiyi hansı mahnı Zərifə xanıma həsr edilmişdir?
6. Azərbaycanla yanaşı hansı ölkələrdə Zərifə Əliyevanın xatirəsi əbədiləşdirilib?

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda:**

Adilqızı G. Ömrün parlaq səhifələri. V kitab. - Bakı : Nərgiz, 2008. - 256 s.

Xəyal S. Halal şöhrət : "Azərbaycanın dünya şöhrətli qadınları" adlı məclisdən. - Bakı : MBM, 2011. - 88 s.

Mirələmov H. Zərifə Əliyeva. - Bakı : Azərbaycan, 2013. - 208 s.

